# Lerik: uğurlar ilbəil artır

***❐ Şairlər Leriki obrazlı şəkildə Talış dağlarının tacına bənzədirlər. Bu, kənardan belə görünür. Reallıq isə dağlarda həyatın çətinliklərini diktə edir. Burada bir yolu çəkmək, bir binanı inşa eləmək aran yerindəkindən ikiqat artıq zəhmət hesabına başa gəlir. Dözüm, fədakarlıq, yurdsevərlik hissi olmasa, pillə-pillə irəliləmək, zirvə-zirvə uğur qazanmaq yalnız xəyal kimi görünər.***

Fərəhli haldır ki, Lerikdə xəyalların gerçəkləşməsi naminə davamlı addımlar atılır. Əldə edilən nailiyyətləri əsl qurucuların hünəri saymaq olar. 2016-cı ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilən toplantıda uğurlardan ətraflı danışılıb, sosial-iqtisadi inkişaf meyilləri konkret faktlar əsasında diqqətə çatdırılıb.

İcra hakimiyyətinin başçısı Rövşən Bağırov hesabat məruzəsində vurğulayıb ki, iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatı sahəsində nəzərəçarpacaq irəliləyişlər olub. Lerik şəhərində inşa edilən kənd təsərrüfatı idarəsi fəaliyyətə başlayıb. Rayon üzrə taxılçılıq, kartofçuluq və tərəvəzçilik üzrə əkin sahələri genişləndirilib, məhsul istehsalının həcmi xeyli artıb. 2017-ci il üçün əvvəlki ilə nisbətən 1306 hektar çox payızlıq əkin işləri aparılıb. Mal-qaranın və davarın baş sayında, heyvandarlıq məhsullarının istehsalında artım müşahidə edilib. Nəticədə bitkiçilik və heyvandarlıq məhsullarının həcmi əvvəlki illə müqayisədə 14 faiz çoxalıb.

Dünyada hökm sürən iqtisadi böhrandan əhalini maksimum az ziyanla çıxarmaq məqsədilə Prezident İlham Əliyevin tapşırığı əsasında dövlət şirkətləri tərəfindən regionlarda maddi durumu zəif olan vətəndaşların işlə təmin edilməsi üçün 235 yeni iş yeri yaradılıb. "Lerik Broyler" MMC quşçuluq kompleksi 687500 baş quş yetişdirərək 6875 sentner quş əti istehsal edərək satıb. Veri-Əliabadı kəndində iş adamı tərəfindən 1 hektar torpaq sahəsində 24 istixana tikilib. Həmin istixanalardan 80 ton pomidor, 500 min ədəd qərənfil əldə edilib.

Kommunal Müəssisələri İstehsalat Birliyində və şəhərdə mövcud olan kommunal binaların təmiri üçün işə götürülmüş 120 nəfərin qüvvəsi ilə bütün suötürücü kanallar, küçə və meydanlar təmizlənərək, səliqəyə salınıb, 41 kommunal yaşayış binası əsaslı təmir edilib. İl ərzində rayon üzrə 874, son dörd ildə isə 11191 yeni iş yeri açılıb ki, bunun da 40 faizdən çoxu daimi xarakterlidir.

Hesabat ilində şəhərin küçələrində xeyli abadlıq işi görülüb. Bibiyanı kəndində 128, Burkandul kəndində 96 nömrəlik müasir elektron ATS-lər quraşdırılıb, rabitə xətlərində təmir-bərpa işləri aparılıb. Lerik şəhərində köhnə 35/10 kilovatlıq yarımstansiyasının yerində müasir tipli yarımstansiya inşa edilib, hava xətlərinin yenidənqurma işlərinə başlanıb. Rayonun 45 yaşayış məntəqəsi tam qazlaşdırılıb. Hazırda daha 4 kəndin qazlaşdırılması ilə bağlı işlər davam edir. Yol infrastrukturu da yenilənib. Bununla bağlı Prezidentin imzaladığı sərəncamlar lazımınca icra olunub: 26,5 kilometrlik Lerik-Qosmalıan-Kəlvəz avtomobil yolu inşa edilib, 36 kilometrlik Noda-Şingədulan-Xanəgah avtomobil yolunun tam yarısı asfaltlaşdırılıb. Tikintinin başa çatdırılması üçün noyabrın 1-də 6,6 milyon manat əlavə vəsaitin ayrılması barədə verilən Prezident sərəncamı ölkə rəhbərinin rayona göstərdiyi qayğının daha bir təzahürüdür. Rayonun daxili imkanları hesabına Piran-Veri, Piran-Hamarat kənddaxili yollarında təmir işləri aparılıb, "Azəravtoyol" ASC tərəfindən Təbrizli kəndinə gedən yolda yeni körpü inşa edilərək istifadəyə verilib.



Məruzəçi, eyni zamanda, rayon həyatının digər sahələrində görülən işlərdən, müəyyən çətinliklərdən və qarşıda duran mühüm vəzifələrdən bəhs edib. Məruzə ətrafında müzakirələrdə



rayon maliyyə idarəsinin müdiri Elman Abbasov, təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbənin aparıcı məsləhətçisi Azər Həsənov, gənclər və idman idarəsinin rəisi Natiq İsaqov iştirak ediblər. Lerik şəhər sakini Hidayət Bəşirov, Elxan Qənbərov və Züvüc kənd sakini Əlirza Abışov rayonda aparılan tikinti-quruculuq işlərindən razılıqlarını bildiriblər.

Şura iclasında Milli Məclisin deputatı İqbal Məmmədov, Prezident Administrasiyasının məsul əməkdaşı Habil Əzənmədov çıxış edərək ölkədə aparılan uğurlu siyasətdən, kənd təsərrüfatının daha da inkişaf etdirilməsi zərurətindən danışıblar.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***